**SOCAR-ın öz biznes tərəfdaşları, o cümlədən təchizatçılar, iş və xidmət podratçılarından gözləntiləri**

SOCAR yüksək etik biznes davranışı standartlarını nümayiş etdirən və onun təhlükəsizlik, etika və uyğunluq üzrə sadiqliyini bölüşən biznes tərəfdaşları, o cümlədən təchizatçılar, iş və xidmət podratçıları (işçiləri də daxil olmaqla) və SOCAR-ın adından çalışan şəxslər ilə işləməyə dəyər verir.

SOCAR qarşı tərəfləri müqavilənin icrası zamanı qanunvericiliyin tələblərinə və etik davranış qaydalarına birlikdə riayət etməyə dəvət edir. Vicdanlılıq, ədalət, düzgünlük, inklüzivlik, bərabərlik, peşəkarlıq və şəffaflıq tərəflər arasındakı davranışda əsas prinsipləri təşkil edir.

SOCAR qanunvericiliyin tələblərinə və etik davranış qaydalarına riayət etməsi barədə üzərinə öhdəlik götürməyən qarşı tərəflərlə münasibət qurmur, bu cür tələb və qaydalara əməl etməyən qarşı tərəflər ilə müqavilə münasibətlərinə xitam verilməsinə çalışır.

SOCAR özünün qarşı tərəflərindən onların təchizat, podrat və dəyər zəncirində olan qarşı tərəflərin də qanunvericiliyin tələblərinə və etik davranış qaydalarına riayət etmələrini gözləyir.

SOCAR rüşvətxorluq və ya korrupsiyanın istənilən formasında iştirak etmir, işin yüngülləşdirilməsinə və ya tezləşdirilməsinə görə qeyri-rəsmi ödənişləri, aktiv (rüşvət təklif etmək, vəd etmək və ya vermək) və ya passiv (rüşvət istəmək, tələb etmək və ya almaq), birbaşa və ya dolayısı (o cümlədən vasitəçilər yolu) ilə olmasından asılı olmayaraq, rüşvətxorluğun bütün növlərini qadağan edir və bu cür yanaşmanı qarşı tərəflərdən gözləyir.

SOCAR keçirdiyi, habelə özünün iştirak etdiyi satınalmalar zamanı, eləcədə digər biznes münasibətlərinin qurulmasının hazırlıq mərhələsində müvafiq olaraq cəlb etdiyi, birlikdə iştirak etdiyi iddiaçılar, satınalma təşkilatları və digər potensial biznes tərəfdaşları tərəfindən korrupsiya və dələduzluq, insan hüquqlarının pozulması, o cümlədən uşaq əməyindən,

məcburi, asılı və digər iradəyə zidd əməkdən istifadə olunması, rəqabət qanunvericiliyinin pozulması, SƏTƏM və ekoloji tələblərə əməl olunmaması kimi və digər qeyri-qanuni/qeyri-etik əməllərə yol verilməsini aşkar etdikdə, hər hansı müqavilə münasibətlərinin qurulmasından çəkinir. Bundan başqa, SOCAR bu cür əməllərə yol vermiş potensial və mövcud podratçıların və təchizatçıların özünün gələcək satınalma prosedurlarında iştirakını qadağan edə bilər.

SOCAR özünün satınalma prosedurlarında iştirak edən şəxslər üçün hər hansı qərəzliliyə və diskriminasiyaya yol verilmədən bərabər imkanlar və şərtlər yaradır.

SOCAR qarşı-tərəflər ilə münasibətdə müqavilənin qanuni və ədalətli şəkildə icrasına təsir edə biləcək hər hansı maraqların toqquşmasına yol verilməməsinə çalışır və belə təsirə səbəb ola biləcək istənilən maraqların toqquşmasının açıqlanmasını öz işçilərindən, onun adından fəaliyyət göstərən bütün şəxslərdən və qarşı tərəflərdən tələb edir.

SOCAR qarşı-tərəflər ilə bağladığı müqavilələrdə qeyri-qanuni və qeyri-etik davranış nəticəsində dəyən ziyanı xüsusi olaraq qeyd etməyə və bu cür davranışın səbəb olduğu tələb hüquqlarını məhdudlaşdırmamağa çalışır.

SOCAR öz fəaliyyətində tətbiq olunan həyat və sağlamlıq, əməyin təhlükəsizliyi, texniki təhlükəsizlik və ətraf mühit standartlarına əməl olunmasına, o cümlədən karbon emissiyasının, istixana qazlarının həcminin azaldılması, təmiz enerjinin istehsalı, resurs və enerji istehlakının səmərəliliyi, biomüxtəlifliyin, meşələrin, torpaqların, su hövzələrinin mühafizəsi, çirklənmənin qarşısının alınması, tullantıların səmərəli şəkildə idarə edilməsi və düzgün utilizasiyası, çirklənmiş torpaqların və su hövzələrinin bərpasına böyük əhəmiyyət verir və bu cür yanaşmanı qarşı tərəflərdən gözləyir.

SOCAR qarşı tərəflər ilə müqavilə münasibətlərində onların müqavilənin icrası zamanı təhlükə olduğu təqdirdə dərhal insan həyatının və əmlakın qorunması, o cümlədən qəzaların qarşısının alınması və təhlükəsiz iş şəraitinin yaradılması üçün zəruri olan tədbirlərin görülməsini, fəaliyyətində keyfiyyət, ətraf mühitin mühafizəsi, əməyin mühafizəsi və təhlükəsizliyi sahəsində tətbiq olunan standartların tələblərinə uyğun idarəetmə sisteminə malik olmasını tələb edir.

SOCAR fəaliyyət göstərdiyi yerlərin icmalarına hörmətlə yanaşır, onlara fayda verməyə çalışır, yerli istehsalçılar, malgöndərənlər, iş və xidmət podratçılarının cəlb olunmasına, yerli məşğulluğun gücləndirilməsinə üstünlük verir, dayanıqlı və sosial məsuliyyətli tərzdə inkişafa töhfə vermək məqsədilə dövlət qurumları və icmalarla birgə işləyir və bu cür yanaşmanı qarşı tərəflərdən gözləyir.

SOCAR inanır ki, hər kəslə ədalət, hörmət və ləyaqətlə rəftar edilməli və inklüzivlik təmin edilməlidir. SOCAR işəgötürən olaraq bərabər imkanların yaradılmasına, layiqli iş şəraitinin təmin olunmasına və əməyin əvəzinin ədalətli ödənilməsinə sadiqdir və bu cür yanaşmanı qarşı tərəflərdən gözləyir.

SOCAR insanların ayrı-seçkilik və sui-istifadədən azad yaşamaq və işləmək, kollektiv danışıqların aparılması və kollektiv mübahisələrin həll olunması məqsədilə sərbəst birləşmək, o cümlədən həmkarlar ittifaqı tərəfindən təmsil olunub-olunmamasını seçmək hüquqlarını dəstəkləyir, bütün ayrı-seçkilik, təqib və zorakılıq formalarına, o cümlədən cinsi qısnama və məsxərəyə qoyma hallarına dözümsüz yanaşır və bu cür yanaşmanı qarşı tərəflərdən gözləyir.

SOCAR öz işçilərinin, eləcə də qarşı-tərəflərin, müştərilərin və təmasda olduğu digər şəxslərin konfidensiallıq hüquqlarına, o cümlədən fərdi məlumatlarının konfidensiallığına hörmətlə yanaşır. SOCAR fərdi məlumatlardan yalnız qanuni məqsədlər üçün istifadə edir, bununla bağlı qüvvədə olan qanunlara əməl edir və bu cür yanaşmanı qarşı-tərəflərdən gözləyir.

SOCAR bütün qarşı tərəfləri və digər maraqlı tərəfləri SOCAR/SOCAR Qrup müəssisələri, onların işçiləri və SOCAR-ı/SOCAR Qrup müəssisələrini təmsil edən şəxslər tərəfindən etik davranış qaydalarının pozulması halları barədə SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xəttinə məlumat bildirməyə çağırır.